*Sərbəst güləş*

# Onlar fərqlənmişlər

Qəbələ rayon Uşaq-Gənclər İdman məktəbi vaxtaşırı olaraq məktəblilər arsında müxtəlif idman tədbirləri, yarışlar təşkil edir. Belə tədbirlərdən biri də bu günlərdə idmanın sərbəst güləş növü üzrə təşkil edilən açıq rayon turniri olmuşdur.

Turnir Qəbələ Olimpiya İldman Kompleksində keçirilmişdir. Yarışlara Oğuz rayonunun idmançıları da qatılmışdılar. 12 çəki dərəcəsində keçirilən yarışların qaliblərі fəxri kürsünün ən yüksək pilləsində dayanmışlar.

23 kiloqram çəki dərəcəsində Emil Mustafazadə I, Daşdəmir Umarov II (hər ikisi Oguz rayonu), 26 kiloqram çəki dərəcəsində Ramin Məmmədov I (Oğuz rayonu), Ramin Əfəndiyev II (Qəbələ rayonu), 29 kiloqram çəki dərəcəsində Əmrah Şəfiyev I, Ceyhun Əzimli II (hər ikisi Qəbələ rayonu), 32 kiloqram çəki dərəcəsində Elçin Əzimzadə I (Qəbələ rayonu), Məhəmməd İslamov II (Oğuz rayonu), 35 kiloqram çəki dərəcəsində Murad İsmayılov I, Şair Abdullayev II (hər ikisi Qəbələ rayonu), 38 kiloqram çəki dərəcəsində Sərvan Umarov I (Oğuz rayonu), Rəhim Abdullayev II (Qəbələ rayonu), 42 kiloqram çəki dərəcəsində Vahid Qəribov I (Oğuz rayonu), Murad Kərimov II (Qəbələ rayonu), 46 kiloqram çəki dərəcəsində Rza Rzayev I (Qəbələ rayonu), Röyal Mahmudov II (Oğuz rayonu), 50 kiloqram çəki dərəcəsində Mahmud Şəkərəliyev I, Davud Nəbiyev II (hər ikisi Oğuz rayonu), 54 kiloqram çəki dərəcəsində Ruslan Zamanov I, Xəyal İsayev II (hər ikisi Qəbələ rayonu), 60 kiloqram çəki dərəcəsində Murad Şəfiyev I (Qəbələ rayonu), 66 kiloqram çəki dərəcəsində Alay Fərzəliyev I (Oğuz rayonu), Əlvan Şairli II (Qəbələ rayonu) yerlərə sahib olmuşlar.

Qaliblər diplom və fəxri fərmanlarla təltif edilmişlər.

**Ədalət ƏLİYEV,**
**Qəbələ Rayon Uşaq-Gənclər İdman Məktəbinin direktoru.**

*Azərbaycan Respublikası Təhsil Nazirliyi*

## Qəbələ Peşə məktəbi 2013–2014-cü dərs ili üçün aşağıdakı peşələr üzrə şagird qəbulu

# ELAN EDİR

**Tam orta təhsil bazasından (11-ci sinif)**

**Meliorasiya işlərinin traktorçusu, təmirçi-çilingər**—təhsil müddəti 1 ildir.

**İnşaat xarratı**—təhsil müddəti 1 ildir.

**Əməliyyatçı-mühasib**—təhsil müddəti 1 ildir.

**Dispetçer xidmətinin operatoru**—təhsil müddəti 1 ildir.

**Çilingər-santexnik**—təhsil müddəti 1 ildir.

**Elektrik-qaz qaynaqçısı**—təhsil müddəti 1 ildir.

**Avtomatlaşdırılmış texnologiyalar və istehsal üzrə operator**—təhsil müddəti 1 ildir.

**Bağ-park və landşaft sahələrinə nəzarət—Bağban**—təhsil müddəti 1 ildir.

**Telefon rabitəsi və radiolaşdırmanın xətt qurğularının elektromontyoru**—təhsil müddəti 1 ildir.

**Ümumi orta təhsil bazasından (9-cu sinif)**

**Tikişçi, tikiş avadanlıqlarının operatoru**—təhsil müddəti 2 ildir.

**Elektrik avadanlığının təmiri və xidməti üzrə elektrik montyoru**—təhsil müddəti 2 ildir.

Məktəbə qəbul olunmaq istəyənlər direktorun adına yazılmış ərizəyə aşağıdakı sənədləri əlavə etməlidirlər:

**—təhsil haqqında sənədin əsli və surəti;**

**—müvafiq formalı tibbi arayış;**

**—şəxsiyyət vəsiqəsinin surəti—2 ədəd;**

**—yaşayış yerindən arayış;**

**—3x4 sm ölçüdə 4 ədəd fotoşəkil.**

Hərbi mükəlləfiyyət haqqında sənəd şəxsən təqdim olunur.

Məktəbdə təhsil alanlara hər ay 33 manat təqaüd verilir.

Dərslər sentyabrın 15-dən başlanır.

Sənədləri hər gün (şənbə və bazar günlərindən başqa) saat 9-dan 16-dək qəbul komissiyasına təqdim edə bilərsiniz.

**Ünvanımız:** Qəbələ şəhəri 28 may küç. 34.
**Telefon:** 024 205-21-56

**DİREKTORLUQ.**

# ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon Təhsil Şöbəsinin müdiri Oqtay Hacıyev və kollektivi metodmərkəzin müdiri **Arifə Bayramovaya,** bacısı

**NƏZAKƏT XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir və kədərləndiklərini bildirir.

---

Qəbələ Rayon İncəsənət məktəbinin kollektivi iş yoldaşları **Sabirə Ağayevaya,** anası,

**QUREYİŞ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Rayon İncənət məktəbinin kollektivi iş yoldaşları **Cahan Mirzəyevaya,** qardaşı

**MƏMMƏD MİRZƏYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağldığı verir.

---

Qəbələ Rayon İncəsənət məktəbinin kollektivi iş yoldaşları **Reyhanə Babayevaya,** anası

**NƏZAKƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şəhər 1 nömrəli uşaq bağçasının kollektivi iş yoldaşları **Məhəbbət İbrahimovaya,** əri

**İBRAHİMOV ƏFRASİYAB KAMAL OĞLUNUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şəhər 1 nömrəli uşaq bağçasının kollektivi iş yolduşları **Mehparə Xəlilovaya,** anası

**AĞAYEVA NƏZAKƏT CUMAR QIZININ**

vəfatı ilə əlaqəqar başsağlığı verir və onun kədərinə şərik olduğunu bildirir.

---

«Qəbələ» qəzetinin kollektivi **Sədaqət** və **Arifə Bayramovalara,** bacıları

**NƏZAKƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Üzümü xeyirxah insanlara tuturam: Ümid çırağımı sönməyə qoymayın!

***Ötən həftə bir ana öz xəstə qızı ilə redaksiyamıza gəlmişdi. Həmin sözləri onun dilindən eşitdik.***



Onun danışıqlarında yalvarışlar duyulurdu. Bu, köməksiz bir ananın fəryadları idi. Yanındakı qızçığaz isə sanki qarşısındakı hər kəsdən mənsum baxışları ilə bir kömək, bir imdad diləyirdi. Baxmayaraq ki, həmin şəxsin buna imkanı var, ya yox.

Gəncəgül Eyvazova və onun kiçik ailəsi rayonumuzun İmamalı kəndində yaşayır. Ailədə bir oğul, bir qız böyüyür. Oğul əsgəri xidmətdədir. Qız isə...

Ana kənd məktəbində xadimə işləyir. Aldığı cüzi məvacib ailənin dolanışacağına yetməyəcək səviyyədədir. Belə olduğu halda ailənin yeganə qızı Aytən gözlənilmədən xəstələndi. Yerli həkimlər uzun müayinədən sonra qızı Bakıya—Milli Onkologiya Mərkəzinə göndərdilər. Burada isə ona «yoğun bağırsağın çoxsaylı polipozu» diaqnozu qoyuldu. Müəyyən müddət müalicədən sonra həkimlər xəstənin müalicəsinin burada artıq imkansız olduğunu söylədilər və davamının qonşu İran İslam Respublikasında mümkünlüyünü bildirdilər.

Ana qızını bu ağır xəstəliyin pəncəsindən xilas etmək üçün xeyli borca düşərək onu İrana apardı və bu sahənin təcrübəli mütəxəssisləri ilkin cərrahiyyə əməliyyatını həyata keçirdilər. Əməliyyat gözlənildiyindən də uğurlu oldu və müəyyən fasilədən sonra xəstə üzərində ikinci əməliyyatın aparılmasının vacibliyi bildirildi.

İndi Aytənin növbəti əməliyyat vaxtı çatmışdır. Buna isə ailənin heç cür maddi imkanı yoxdur. Ananın qızı ilə bərabər redaksiyaya üz tutmalarının səbəbi də elə bu idi. Onlar imkanı olan insanlardan kömək və yardım gözləyirlər. Bunun əvəzini isə duaları ilə ödəməkdən başqa çıxış yolları yoxdur.

Ailəyə kömək etməyə imkanı olan şəxslər İmamlı kəndində Aytən Eyvazovagilin ailəsinə, onun validеyni Gəncəgül anaya müraciət edib, baş çəkə bilərlər. Qızın arzusu isə sağlamlığını bərpa edib yarımçıq qalmış təhsilini davm etdirməkdir.

Yəqin ki, xeyirxah insanlar Aytənə əl uzadacaq, bir köməksiz ailənin ümid çırağını sönməyə qoymayacaqlar.

**Miri RƏHİMOV,**
**«Qəbələ»nin əməkdaşı.**

# ELANLAR

Qəbələ rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 may 1998-ci il tarixli 10 nömrəli qərarla Kiçik Əmili kənd sakini Mustafayev Səlim Ağası oğlunun adına verilmiş JN 0048 nömrəli, kodu 40607038 (qeydiyyat № 6888) **Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün** etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 15 may 1998-ci il tarixdə 9 №-li qərarla İmamlı kənd sakini Qədirov İlqar Məhəmmədəli oğlunun və ailə üzvlərinin adına verilmiş **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** (şifrəsi JN-083 F, kodu 40613038) **itdiyi üçün** etibarsız sayılır.

*Məsul katib*
*N. R. Atakişiyev.*

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Məsul növbətçi*
*A. C. Cəlilov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2142.